**FƏNN**: QİYMƏT VƏ QİYMƏTLƏNDİRMƏ

# MÖVZU 8: BAZAR MÜNASIBƏTI ŞƏRAITINDƏ QIYMƏTLƏRIN TƏNZIMLƏNMƏSI

**Müəllim**: Rafiq Vahid oğlu Abbasov
**Tarix :** 2025

**İxtisas**: Marketinq

**Qrup**: $3^1, 3^2, 3^3$

**Mühazirə:** Teorik

**FTN 4**. Qiymətlərə inflyasiyanın təsiri, qiymətlərin firma və dövlət tərəfindən tənzimlənməsi istiqamətlərinin müəyyənləşdirilməsi öyrənilir

## P L A N

1. İqtisadiyyatın və qiymətlərin dövlət tərəfindən tənzimlənməsinin zəruriliyi.
2. Dövlətin qiymətləri tənzimləmə və qiymətlərə nəzarət metodları.

## ƏDƏBİYYAT


1. Çudakov A.D. . "Qiymət və qiymətin əmələ gəlməsi" Dərslik. Bakı, "Elm", 2009, rus dilindən tərcümə, 312 səh.
2. Kazımlı X., Bayramov Q., Sadıqov B., Quliyev İ., Hümbətova S., Məmmədov İ. Qiymətin əmələ gəlməsi. Dərslik Bakı, "Müəllim", 2019, 498 səh.
3. Qarayev İ. Qiymətin əmələ gəlməsi. Dərslik. Bakı, UNEC, 2000, 358 səh.
4. Qafarov N.C., Quliyev İ.Q. Qiymət və qiymətləndirmə. Bakı, ADİU, 2017, 375 səh.


.

## *1. İQTİSADİYYATIN VƏ QİYMƏTLƏRİN DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİNİN ZƏRURİLİYİ*

Müasir şəraitdə iqtisadiyyata tənzimləyici təsiri yalnız dövlət deyil, həm də xüsusi inhisarlar göstərirlər. Bununla əlaqədar iqtisadiyyatın tənzimlənməsi iki səviyyədə, yəni makrosəviyyədə (*subyekt dövlətdir*) və mikrosəviyyədə (*subyekt xüsusi firmalardır*) həyata keçirilir. Firmanın bazar strategiyası dövlətin iqtisadi siyasəti necə aparmasından asılıdır.

Şirkətlərin və dövlətin qarşılıqlı əlaqələrinin xüsusiyyəti yalnız müasir cəmiyyətin iqtisadi və sosial münasibətlərinin xarakterinə deyil, həm də onun tənzimlənməsi mexanizminə təsir göstərir.

Dövlət və xüsusi şirkətlər təsərrüfat həyatının tənzimlənməsinə dair öz funksiyalarını ayrı-ayrılıqda deyil, sıx vəhdətdə yerinə yetirirlər. Şirkətlər məhsuldar qüvvələrin inkişafının təsiri altında istehsalın ictimailəşmə dərəcəsinin yüksəlməsinə obyektiv surətdə nə qədər çox imkan yaradırlarsa, öz hökmranlığını saxlamaq üçün dövlətin köməyinə bir o qədər çox müraciət etməyə məcbur olurlar. Lakin bu qarşılıqlı əlaqə yalnız iqtisadiyyatın inhisarlaşmasının nəticəsi kimi başa düşülməməlidir.

Dövlətin təsərrüfat vəzifəsinin dəyişilməsi də mühüm əhəmiyyət kəsb edir. Dövlət müxtəlif vasitələr kompleksi yaradaraq onların köməyi ilə təsərrüfatçılıq fəaliyyəti proseslərinə qarışır. İqtisadiyyatın inhisarlaşması artdıqca və onun ictimailəşmə dərəcəsi yüksəldikcə dövlət şirkətlərin imkanları xaricində olan yerinə yetirə bilmədikləri kapitalın toplanması və istehsal prosesinin idarə edilməsinin mühüm funksiyalarını öz üzərinə götürməlidir.

Dövlət və firmalar tənzimləmənin müstəqil subyektləridir. Şirkətlərin fəaliyyət dairəsinin genişlənməsi təkrar istehsal prosesinin mühüm qarşılıqlı əlaqələrinin formalaşmasına həlledici təsir göstərir. İnhisarçılığın bütün formaları eyni zamanda tənzimləmə formalarıdır. İstehsalın strukturunun dəyişilməsi və intensivləşdirilməsi üçün xüsusi firmalar inhisarlaşmanın birləşmə, kartel, kooperasiya, bazar strategiyasının yeni növləri kimi müxtəlif formalarından istifadə edirlər.

Dövlət isə özünün tənzimləyici fəaliyyətində məcburiyyətin hüquqi formalarından istifadə edir və böyük iqtisadi resurslara sərəncam verir. İqtisadi proseslərin dövlət tənzimlənməsi alətləri kompleksi üç mühüm vasitədən, yəni dövlət büdcəsi, dövlət bank sistemi və iqtisadiyyatın dövlət sektorundan

ibarətdir. Dövlət onların vasitəsilə iqtisadi artımı və ETT-ni stimullaşdırır, şirkətlərin xarici iqtisadi əlaqələrinə kömək etməklə təsərrüfatların fəaliyyətlərinə təsir göstərir.

Xüsusi inhisarçı və dövlət tənzimləmələri arasında qarşılıqlı əlaqə yalnız dəyişən şəraitə uyğunlaşma məqsədi deyil, həm də cəmiyyətin daha da iqtisadi inkişafı üçün zəruri olan struktur irəliləmələrinin həyata keçirilməsi məqsədini daşıyır.

XX əsrin 30-cu illərində kapitalist təsərrüfatının böhranı bazar iqtisadiyyatının əsaslarına təhlükə yaradan bir həddə çatmışdı. Bu da bir sıra ölkələrin hökumətlərini bazar münasibətlərinə qarışmamaq siyasətindən əl çəkməyə və işsizliyin azaldılmasına, iqtisadiyyatın davam etməkdə olan tənəzzüldən çıxarılmasına yönəldilən geniş əhatəli iqtisadi tədbirlərdən istifadəyə məcbur etdi.

Bazar təsərrüfatının fəaliyyətinin əsas prinsiplərinə yeni yanaşma C.M. Keyns tərəfindən işlənib hazırlanmış dövlət tənzimlənməsi konsepsiyasında öz əksini tapmış və onun 1936-cı ildə nəşr olmuş "*Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi*" adlı məşhur əsərində şərh edilmişdir. Keyns nəzəriyyəsi ona əsaslanır ki, kortəbii bazar mexanizmi istehsal amillərindən tam istifadəni təmin etmək qabiliyyətində deyildir.

Bu nəzəriyyəyə görə dövlət qarşısında ayrı-ayrı təsərrüfat vahidləri tərəfindən qərarların sərbəst şəkildə qəbul olunması saxlanıldıqda səmərəli tələbin ümumi həcminin müəyyən edilməsi yolu ilə bazar mexanizminin fəaliyyətinə qarışmaması vəzifəsi qoyulurdu.

Bazar iqtisadiyyatının dövlət tənzimlənməsi sistemi ikinci dünya müharibəsindən sonra daha böyük əhəmiyyət kəsb etmiş oldu. Bu zaman dövlət tənzimlənməsinin əsas vəzifələri milli gəlirin artımını, tədiyə balansının tarazlığını, qiymətlərin sabitliyini təmin etməkdən ibarət idi.

Bazar iqtisadiyyatı şəraitində dövlət milli təsərrüfata birbaşa və ya dolayı, məsələn, dövlət mülkiyyəti, yaxud vergi sistemi, faiz dərəcəsi, tariflər vasitəsilə təsir göstərə bilər.

İqtisadi proseslərin tənzimlənməsinin yeni prinsiplərinin tətbiqi dövlət tərəfindən kredit-pul və vergi-maliyyə dairələrində həyata keçirildi. Qiymətli kağızların emissiyası (buraxılması), onların qorunması, dövriyyəsi və xarici valyutaya mübadiləsinin dövlət orqanları tərəfindən passiv qeydiyyatının aparılmasını pul kütləsinin həcminin, faizin səviyyəsinin və digər kredit şərt-

lərinin, həmçinin valyuta məzənnəsinin aktiv tənzimlənməsi əvəz etdi. Büdcə tarazlığının gözlənilməsi və dövlət xərclərinin azaldılması prinsipi xərclərin kəmiyyətinin və vergi normalarının məcmu ictimai tələbin tənzimlənməsi ehtiyatlarına tabe olunmasını ifadə edən funksional maliyyə konsepsiyası tərəfindən sıxışdırılıb aradan çıxarıldı.

Dövlət yanacağın, xammalın, əsas kənd təsərrüfatı məhsullarının qiymətini nəzarətə götürdü. Dövlət büdcəsi milli gəlirin $1/4$-dən $1/3$ -ə qədərini əhatə etməyə başladı (*halbuki iki dünya müharibəsi arasındakı dövrdə bu rəqəm cəmi 5-10% təşkil edirdi*). Dövlət tərəfindən iqtisadiyyatın tənzimlənməsinin dolayı formaları iqtisadi artıma təsir göstərdi. Əgər 50-60-cı illərdə dövlətin əsas məqsədi təkrar istehsal tsiklinə təsir göstərmək idisə, 80-ci illərdə bu antiinflyasiya vergi-büdcə tənzimlənməsi olmuşdur.

80-ci illərin əvvəllərində təkrar istehsal şəraitinin pisləşməsi, daha ucuz xammal və enerji mənbələrindən istifadənin məhdudluğu, iqtisadi böhran dövlət tərəfindən qəti tədbirlərin görülməsinin zəruriliyini bir daha təsdiq etdi. Təsərrüfat həyatına dövlətin təsirinin gücləndirilməsinin digər səbəbi isə dünya kapitalist bazarında rəqabətin kəskinləşməsi və ticarətin strukturunun dəyişilməsi oldu.

Beləliklə, 1974–1975 və 1980–1982-ci illərin iqtisadi böhranları iqtisadiyyatın dövlət tənzimlənməsinin inkişaf perspektivlərinə dair bir çox suallar doğurdu. Bu şəraitdə bazarın idarə edilməsinin yeni konsepsiyalarının axtarışı baş verdi.

Qərb iqtisadi nəzəriyyə və praktikasının sağ cinahının nümayəndələri olan yeni mühafizəkarlar 70–80-ci illərin böhran proseslərini təsərrüfat həyatına dövlətin həddən artıq qarışmasının nəticəsi kimi göstərməyə çalışırlar. Onlar iqtisadiyyatın sağlamlaşdırılmasını bazarın tənzimlənməsinə qarışmamaqda və xüsusi biznesin fəaliyyəti üçün maksimal əlverişli şəraitin yaradılmasında görürlər. Tənzimlənmənin tərəfdarları isə, əksinə, iqtisadiyyata dövlətin qarışmasının perspektivini bazarın səmərəliyinin yüksəldilməsində, onun forma və metodlarının təkmilləşdirilməsində görürlər.

Müharibədən sonrakı bir neçə onilliklər ərzində sənayecə inkişaf etmiş ölkələrin iqtisadi siyasətinin nəzəri və iqtisadi əsasını makroiqtisadi tənzimləmənin Keyns nəzəriyyəsi təşkil etmişdir. İqtisadiyyatın inkişafı tələblərinə

cavab verən bu nəzəriyyə bazar iqtisadiyyatının bu və ya digər nasazlıqlarının müalicəsinin "*elmi cəhətdən əsaslandırılmış*" resepti (*üsulu*) kimi bir çox illər bazar iqtisadiyyatının yüksək inkişaf sürətini təmin etmiş, bazarın konyunktur enib-qalxmalarını yumşaltmışdır.

Təkrar istehsal şəraitinin 60-cı illərin sonunda başlayan və 70-ci illərdə davam edən dərin modifikasiyası dövlət müdaxiləsinin yeni nəzəri əsaslandırılmasını tələb etdi. 70-ci illərdə aydın oldu ki, Keyns üsullarının köməyi ilə məşhur "*sehirli dördbucaq*" iqtisadi siyasətin rəsmi məqsədlərinə (*sabit iqtisadi artıma, yüksək məşğulluğa, qiymətlərin dayanıqlığına və tədiyə balansının tarazlığına nail olunması*) çatmaq mümkün olmamışdır.

Qərb iqtisadçılarının demək olar ki, hamısının fikrincə Keyns nəzəriyyəsi artıq mövcud iqtisadi problemləri həll etməyə qabil deyildir. Keynsçi sxemin başlıca çatışmazlıqlarından biri, onun xarici iqtisadi əlaqələrin təsirini nəzərə almaması, yəni qapalı iqtisadiyyat modelinə əsaslanmasıdır.

Artan iqtisadi çətinliklər və təsərrüfat konyunkturasına təsirin köhnə metodlarının yararsızlığı Qərb iqtisad elmində "*monetarizm*" adı altında dövlət tənzimləməsinin yeni nəzəriyyəsinin yaranmasına səbəb oldu.

Monetarizm konsepsiyası dövlətin vergi və pul siyasətindən istifadə etməklə iqtisadi münasibətlərə məqsədyönlü qarışmasına əsaslanan keynsçi yanaşmanı rədd edir. Monetaristlərin fikrincə, bu siyasət tənzimləyicisi qiymətin əmələ gəlməsi mexanizmi olan siyasətlə əvəz olunmalıdır. Burada mərkəzi hakimiyyət yalnız "*ümumi qaydalara*" əməl olunmasını təmin etməlidir ki, onlardan biri pul təklifinin uzunmüddətli artımının ümumi milli məhsulun artımından asılılığıdır.

Dövlətin pul-kredit siyasəti məsələlərinə dair monetarizmin tövsiyyəsinin əsasında aşağıdakı prinsiplər dayanır: pul təklifinə ciddi nəzarətin zəruriliyi, işsizliyin artdığı şəraitdə belə inflyasiya ilə mübarizə, iqtisadiyyata öz-özünü tənzimləyən sistem kimi yanaşılması.

İqtisadiyyatın dövlət tənzimlənməsi haqqında məsələyə dair neoklassik mövqedən çıxış edən və dövləti bazar mexanizmlərinə əsaslanmağa çağıran monetaristlər bununla belə, onun ölkənin iqtisadi həyatına qarışma hüququnu inkar etmirlər. Monetaristlər dövlət orqanlarına uzun müddətli aspektdə iqtisadi siyasətin sabitliyini təmin etməyi təklif edirlər. Onların fikrincə, konyunkturanın qısa müddətli tarazlığı öz-özünə baş verəcəkdir.

Monetaristlərin özlərinin də etiraf etdiyi kimi, bu konsepsiyanın ən zəif yeri pul kütləsinin tənzimlənməsi məsələsidir. Tənqidçilərin çoxu hesab edirlər ki, belə tənzimləmə, əgər ümumiyyətlə mümkündürsədə olduqca çətindir. Çünki tədavüldə dövr edən pulun lazımi miqdarının müəyyən olunması çətin, onun tədavül sürəti isə dəyişkəndir.

Müasir Qərb iqtisadi fikrindəki dərin ayrılıqlara və neoklassik nəzəriyyənin tərəfdarlarının mövqelərinin güclənməsinə baxmayaraq, inkişaf etmiş ölkələrdə keynsçi nəzəriyyə əvvəlki kimi yenə də aktualdır. Məsələn, iki əsas istiqamətin, yəni keynsçi və neoklassik istiqamətlərin ideyalarını birləşdirən özünün qarışıq iqtisadiyyat nəzəriyyəsində görkəmli Amerika iqtisadçısı, 1970-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına layiq görülmüş Pol Samuelson Keynsin nəzəriyyəsinə üstünlük verir. O, dövlət tənzimlənməsi problemini ön plana çəkir və maliyyə, pul siyasəti və gəlirlər siyasətini böhranlara qarşı mübarizənin əsas vasitələri sayır.

İnkişaf etmiş ölkələrin iqtisadi siyasəti çox hallarda hər hansı bir nəzəriyyəyə əsaslanmır və tənzimləmənin keynsçi metodları daha çox monetarist metodlarla əlaqələndirilir. Hər iki istiqamət arasındakı mübahisə ideoloji xarakter daşımış və indi də daşıyır. İqtisadi siyasət alətlərindən istifadə məsələlərində monetarizmin və keynsçiliyin mövqeləri barışmaz qalsa da, makroiqtisadi proseslərin təhlili metodologiyası və iqtisadi siyasətin istiqamətlərinə dair tövsiyyələr baxımından iki məktəb arasındakı fərqlər azdır.

## *2. DÖVLƏTİN QİYMƏTLƏRİ TƏNZİMLƏMƏ VƏ QİYMƏTLƏRƏ NƏZARƏT METODLARI*

Dövlətin qiymətin əmələ gəlməsi prosesinə təsiri inkişaf etmiş ölkələrin iqtisadi siyasətinin mühüm və müntəzəm surətdə tətbiq edilən metodlarından birinə çevrilmişdir.

Qiymətlərin dövlət tənzimlənməsinin yaranmış sistemi sahə dövlət siyasətinin digər formaları ilə birlikdə dəyər proporsiyalarına və milli gəlirin ölkənin ayrı-ayrı sahələri və əhali kateqoriyaları arasında bölgüsünə təsir göstərir. Son onilliklərdə inflyasiyanın artması ilə əlaqədar olaraq tənzimlənmənin bu formasının rolu kəskin şəkildə artmışdır. <u>*Qiymət siyasəti*</u> dövlətin iqtisadi fəaliyyətinin ən mühüm sahələrindən biri olmuşdur.

Müharibələr və ondan sonrakı dövrlərdə qiymətlərin tənzimlənməsi dövlətin geniş yayılmış praktikasına çevrilmişdir. Belə hallarda qiymət sahəsində dövlət tənzimləməsi adətən aşağıdakı məqsədləri daşıyır:

1) müharibə dövründə pulun dəyərdən düşməsi nəticəsində qiymətlərin inflyasiya artımının dayandırılması, ayrı-ayrı məmulat və xidmət növlərinin qiymətlərinin uyğunsuzluğunun aradan qaldırılması;

2) istehsalın inkişafında zəruri nisbətlərə nail olunması;

3) qiymət artımına mütənasib olaraq yüksələn əmək haqqı artımının çətinləşdirilməsi;

4) dövlətin nəzarətində olan istehsala maliyyə yaradımı göstərilməsi, iqtisadiyyatın geridə qalan sahələrinin (*ilk növbədə kənd təsərrüfatının*) xarici rəqabətdən qorunması, xarici iqtisadi fəaliyyətə kömək edilməsi;

5) soisal-iqtisadi tədbirlərin görülməsi üçün zəruri büdcə vəsaitlərinin toplanması.

Bəzi iqtisadçılar isbat etməyə çalışırlar ki, bazar şəraitində qiymətlərin dövlət tərəfindən tənzimlənməsi yolverilməzdir. Lakin bazar iqtisadiyyatlı ölkələrin təcrübəsi inandırıcı surətdə göstərir ki, dövlət daxili bazarda qiymətlərə nəzarətdən kənara çəkilməmiş və çəkilmir, ancaq bu məsələləri bazar mexanizminə xas olan metodlarla həll edir.

Qiymətlərin dövlət tənzimlənməsi dövlətin qanunvericilik, inzibati və büdcə-maliyyə tədbirlərinin köməyi ilə bütövlükdə iqtisadi sistemin sabit inkişafına, yəni qiymətlər vasitəsilə təkrar istehsal proseslərinin tsiklik enib-qalxmalarının aradan qaldırılmasına imkan yaratmaq cəhdindən ibarətdir. Konkret təsərrüfat konyunkturasından asılı olaraq qiymətlərin tənzimlənməsi böhrana qarşı və ya inflyasiyaya qarşı xarakter daşıyır.

Büdcə xərclərinin, vergilərin, kreditə görə faiz dərəcələrinin və digər iqtisadi vasitələrin dəyişdirilməsi yolu ilə iqtisadiyyatın dövlət tənzimlənməsi məhsula çəkilən xərclərin və qiymətlərin dəyişilməsində təzahür edir və təkrar istehsal proseslərinə təsir göstərir.

Dövlət tənzimlənməsinin məqsədləri sabit defisitin yaranmasına, istifadə edilən xammal və yanacağın qiymətlərinin kəskin surətdə artmasına, istehsalçıların inhisarçılığı nəticəsində qiymətlərin inflyasiya artımına yol verməməkdən, elimi-texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqinə imkan verən normal rəqabətin yaradılmasından ibarətdir. Bu zaman mühüm vəzifə

müəyyən sosial nəticələrə, o cümlədən layiqli yaşayış minimumunun təmin edilməsinə, insanların kifayət miqdarda ilkin zərurət malları almalarına imkan yaradılmasına nail olmaqdan ibarətdir.

Dövlət tərəfindən istehsalçılara edilən təsir həm birbaşa–qiymətin əmələ gəlməsinin müəyyən qaydalarının yaradılması yolu ilə, həm də dolayı, yəni maliyyə-kredit mexanizmi, əmək haqqı, vergi və s. kimi iqtisadi mexanizmlər vasitəsilə ola bilər.

Bazar şəraitində qiymətlərin işlənib hazırlanması hökumət tərəfindən qəbul olunmuş qanunlar nəzərə alınmaqla istehsalçılar tərəfindən sərbəst şəkildə həyata keçirilir. Bu zaman müəyyən edilmiş iqtisadi davranış normalarından kənara çıxılması əmtəə istehsalçılarının öz tərəfdaşları ilə qarşılıqlı əlaqələri prosesində, yaxud da maliyyə-kredit, vergi və i.a. vasitəsilə asanlıqla aşkar oluna bilər. ABŞ-da həddən artıq yüksək qiymətin qoyulmasına görə cinayət məsuliyyəti nəzərdə tutulur. Lakin burada dövlətin vəzifəsi qiymətə zorakı nəzarət deyil, daha çox, münsif rolunda çıxış etməkdən ibarətdir.

Qiymətlərin birbaşa və dolayı tənzimlənməsi metodları fərqləndirilir (*şəkilə bax*).

| | | |
|---|---|---|
| *<u>Qiymətlərin birbaşa tənzimlənməsi metodları:</u>*<br>a) qiymətlərin inzibati yolla müəyyən edilməsi;<br>b) qiymətlərin dondurulması;<br>c) qiymətlərin hədd səviyyəsinin müəyyən olunması;<br>d) rentabellik səviyyəsinin nizamlanması;<br>e) qiymətlərin təyin olunması üçün normativlərin müəyyən edilməsi;<br>ə) qiymətlərin rəsmən bildirilməsi və s. | ← Qiymət → | *<u>Qiymətlərin dolayı tənzimlənməsi metodları:</u>*<br>a) vergiqoyma;<br>b) pul tədavülünün tənzimlənməsi;<br>c) əmək haqqı;<br>d) kredit siyasəti;<br>e) dövlət xərclərinin tənzimlənməsi;<br>ə) amortizasiya normalarının müəyyən edilməsi və s. |

***Şəkil.*** *Qiymətlərin dövlət tənzimlənməsi*

Qiymətlərin birbaşa tənzimlənməsi metodlarında dövlət onların səviyyəsinin nizama salınması, rentabellik normativlərinin və ya qiyməti təşkil

edən elementlərin normativlərinin müəyyən olunması yolu ilə, yaxud da digər oxşar metodlarla qiymətə bilavasitə təsir göstərir.

Qiymətin dolayı tənzimlənməsi metodlarına faizin uçot dərəcəsinin, vergilərin, gəlirlərin, minimum əmək haqqının səviyyəsinin və s. tənzimlənməsi aiddirlər. Bu metodlar dövlətin qiymətin özünə deyil, makroiqtisadi xarakter daşıyan və qiymətin əmələ gəlməsinə təsir göstərən amillərə təsirində təzahür edir.

Dövlət tərəfindən qiymətlərin *birbaşa* və *dolayı* tənzimləmə metodlarının çevik əlaqələndirilməsi optimal hesab olunur.

Adətən, dövlət qiymətlər sisteminin əsasını təşkil edən məhsul və xidmət növlərinin qiymətlərini birbaşa tənzimləyir. Bu enerjidaşıyıcıların, nəqliyyat və rabitə xidmətlərinin, mənzil-kommunal xidmətlərinin və ölkənin bütün iqtisadiyyatına ciddi təsir göstərən digər xidmətlərin qiymətləridir. Dövlət həmin əmtəə və xidmətlərin qiymətlərini müəyyən edib və onları tənzimləməklə ümumi qiymətlər sisteminə həlledici təsir göstərir.

*Birbaşa dövlət tənzimlənməsi* bazarın ən mühüm parametrlərinə nəzarət vasitəsilə bazarın təshih edilməsinin labüdlüyünü və bazar mexanizminin mərkəzləşdirilmiş dövlət siyasəti ilə tamamlanmasını nəzərdə tutur. Qeyri-təkmil bazar təsərrüfatı şəraitində yaranan tarazlı qiymət iqtisadiyyatda sabitliyə nail olunmasına kömək etmir. Buna görə də dövlət qiymətlərinin müəyyənləşdirilməsi və tənzimlənməsi yolu ilə məqsədyönlü şəkildə tarazlıq şəraitini yaratmalıdır.

Dövlət işlək qiymət siyasəti yeritməklə xalis bazar təsərrüfatçılığı üçün əlverişli olmayan (*uzunmüddətli elmi-texniki proqramlar, hərbi-sənaye kompleksi, nəqliyyat, rabitə, kommunal təsərrüfatı və s.*) biznesin mənfəətliyini təmin edə bilər. Belə nəticəyə həm müqavilə qiymətlərindən istifadə yolu ilə, həm də dövlət sifarişləri və alışlarının yerləşdirilməsi vasitəsilə nail olmaq mümkündür.

Əlbəttə, qiymətlərin həddən artıq dövlət tənzimlənməsində bazar mexanizmləri zəifləyir və məsrəflər ilə nəticələrin müqayisəsi üçün bazar istiqamətlərinin itirilməsi təhlükəsi yaranır. Çünki, əsas bazar parametrləri qeyri-bazar amillərinin güclü təsirini hiss edirlər. Rəqabətli bazarla əlaqəli olmayan və dövlət tərəfindən müəyyən edilən qiymət tələb və təklifin dəyişilməsindən asılı olaraq kifayət qədər tez dəyişilə bilmir. Bu halda planlı iqtisadiyyatda

olduğu kimi, ya defisit, ya da satılmayan əmtəələrin bazarda yığılıb qalması baş verir.

Dövlətin qiymətlərin formalaşması və onların tənzimlənməsindən tam kənara çəkildiyi halda iqtisadiyyatın əsasları dağılır, dövlət inhisarçılıqla mübarizənin ən mühüm metodlarından birini itirir, bazar münasibətləri və bir çox müəssisələrin maliyyə vəziyyətləri isə qeyri-sabit olur.

Bazar iqtisadiyyatında dövlət tərəfindən qiymətlərin müəyyən olunması və tənzimlənməsinə hədsiz meyl göstərilməsi kimi, belə tənzimləmədən tam imtina edilməsi də (*ilk növbədə səmərəli, lakin inhisarçı müəssisələrin rəqabətini çətinləşdirən məhsullara*) yolverilməzdir. Cəmiyyətin keçid dövrü üçün qiymətlərin birbaşa dövlət tənzimləməsinin zəruriliyi artır.

Qiymətlərin dövlət tənzimlənməsi həmçinin istehsalçıların satış qiymətlərinin səviyyəsinə təminat verilməsinin köməyi və istehsal xərclərinə maddi yardım edilməsi yolu ilə də həyata keçirilir. Məsələn, ABŞ-da bazar qiymətləri təminat verilmiş minimumdan aşağı düşdüyü halda istehsalçılara büdcədən maddi yardım göstərilir. Xüsusi hökumət təşkilatı (*ticarət kredit korporasiyası*) fermerlədən kənd təsərrüfatı məhsullarını təminatlı qiymətlərlə girov qəbul edir. Əgər girovun qoyulduğu dövr ərzində (*adətən 12 ay*) bazarda qiymətlər girov qiymətləri səviyyəsindən yuxarı qalxarsa, fermer öz əmtəəsini girovdan geri alaraq onu bazarda sata bilər. Bazar qiymətləri girov qiymətlərindən aşağı olduqda isə, əmtəə geri alınmır və o, korporasiyanın mülkiyyətinə keçir.

Kənd təsərrüfatında əmək məhsuldarlığının yüksəldilməsi məqsədilə istehsal xərclərinə maddi yardım edilməsi yolu ilə qiymətlərin tənzimlənməsi gübrələr, kənd təsərrüfatı maşınları, yüksək keyfiyyətli toxumlar alınması, meliorasiya işlərinin aparılması və i.a. üçün istehsalçıya dövlətin maddi yardım göstərməsini nəzərdə tutur. Bundan başqa, dövlət kənd təsərrüfatı məhsullarının qiymətləri ilə fermerlərin aldıqları əmtəələr arasındakı nisbətə də yardım edir. Bu vəzifəni kənd təsərrüfatı nazirliyi yerinə yetirir.

Məsələn, ABŞ-da son iyirmi il ərzində ölkə daxilində şəkərin pərakəndə satış qiymətinə çox ciddi nəzarət olunur. Belə ki, onun 1 kq-ını 1 dollardan (*92 sentdən 102 sentə qədər*) yuxarı qalxmağa qoymurlar. Bu məqsədlə dövlət tərəfindən maddi yardım ayrılır və digər məhdudiyyətlər tətbiq edilir.

Yaponiyada xüsusi hökumət orqanı–iqtisadi planlaşdırma idarəsinin qiymətlər bürosu vardır ki, o da inhisar əleyhinə qanunlara əməl olunmasına nəzarəti həyata keçirir, tələbin lazım olan səviyyədə saxlanılması üçün tədbirlər görür, tələb və təklifin meyllərini öyrənir. Dövlət orqanları tərəfindən düyünün, buğdanın, ətin və süd məhsullarının qiymətləri, dəmir yolu tarifləri, su və istilik təchizatı, elektrik enerjisi və qaz, təhsil və səhiyyə xidmətləri tarifləri müəyyən olunur.

Qiymətlərin oxşar şəkildə tənzimlənməsi digər ölkələrdə də həyata keçirilir.

Qiymətlərin birbaşa tənzimlənməsi metodları ilə bərabər dövlət *dolayı tənzimləməni* həyata keçirir, yəni qymətin əmələ gəlməsi prosesinə bir sıra dolayı tədbirlər vasitəsilə də təsir göstərir. Belə tədbirlər Qərbi Avropa ölkələrində, qiymətlərin inflyasiya artımının davamlı xarakter daşıdığı XX əsrin əvvəllərindən tətbiq olunmağa başlanmışdır. Qiymətlərin dolayı tənzimləmə tədbirləri, adətən, bazar konyunkturasının dəyişilməsinə, maliyyə, valyuta və vergi əməliyyatları sahəsində müəyyən vəziyyətin yaradılmasına, bütövlikdə isə tələb və təklif arasında opimal nisbətin əldə olunmasına yönəldilir.

Qiymətlərin dolayı tənzimlənməsi metodlarına dövlət alışları, vergi sistemi, pul tədavülü və kreditin tənzimlənməsi, dövlət investisiyaları siyasəti və dövlət xərclərinin tənzimlənməsi, amortizasiya normalarının müəyyən edilməsi və i.a. aiddir. Dövlət bu tədbirlərin köməyi ilə tələb və təklif arasında tarazlığa nail olunmasına və beləliklə də bütün iqtisadiyyat miqyasında qiymətlərin daha bərabər və yavaş-yavaş artmasına şərait yaratmağa çalışır.

Bazar iqtisadiyyatı yoluna qədəm qoyan ölkələrdə qiymətlərin dövlət tənzimlənməsi, adətən, aşağıdakı formalarda həyata keçirilir:

1) icra hakimiyyəti orqanları tərəfindən ayrı-ayrı istehsalçılara, qiymətin bazarın diqtə etdiyi qiymətlərdən daha aşağı səviyyədə saxlanmasına imkan verən dotasiya ödəmələri;

2) istehsalçılar, topdansatış və pərakəndə satış təşkilatları üçün sahələr üzrə diferensiallaşdırılması rentabelliyin hədd normalarının müəyyən edilməsi;

3) istehsalçının bulaxılış qiymətlərinə möhkəm topdansatış və pərakəndə satış ticarəti əlavələrinin müəyyən olunması;

4) təsbit olunmuş möhkəm qiymətlərin müəyyən edilməsi;

5) inhisarçı müəssisələr üçün hədd qiymətlərinin müəyyən olunması;

6) inhisarçı olmayan müəssisələrin rentabellik səviyyəsinin məhdudlaşdırılması;

7) məhsulunu hədd qiymətləri səviyyəsindən aşağı qiymətə satan kənd təsərrüfatı müəssisələrinə və tədarükçülərə vergi və büdcəyə digər ödənişlər üzrə güzəştlərin müəyyən edilməsi;

8) istehsalçının buraxılış qiymətlərinə topdansatış və pərakəndə satış ticarəti üşün ticarət əlavələrinin hədd səviyyəsinin müəyyən olunması;

9) qiymət artımının qarşısının alınması məqsədilə onların yüksəldilmə əmsallarının müəyyən edilməsi;

10) istehsal və tədavül xərclərinin vahid siyahısının tətbiqinə, həmçinin maliyyə nəticələrinin hüquqi qüvvəyə malik formaya salınmasının vahid qaydasına dair tövsiyyələrin verilməsi;

11) sərbəst qiymətlərin artırılmasının rəsmən bildirilməsi (*deklarasiyası*).

İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə, dayanıqlı əmtəə təklifinə əsaslanan rəqabət mühiti qiymətlərin nisbi sabitliyini saxlayır, ayrıca bir istehsalçı və ya vasitəçi üçün əsassız olaraq qiymətlərin birdən artırılmasını mümkünsüz edir. Əslində, həmin ölkələrdə praktiki olaraq sərbəst qiymətin əmələ gəlməsi yox, inhisar məhsuluna və bəzi sosial əhəmiyyət kəsb edən əmtəə və xidmətlərə (*İngiltərədə–süd, Yaponiyada–düyü və i.a.*) qiymətlərin dövlət tənzimlənməsi ilə tamamlanan rəqabətli qiymətin əmələ gəlməsi vardıır.

İqtisadiyyatın vəziyyətindən asılı olaraq qiymətlərin dövlət tənzimlənməsi dəyişilir. Belə ki, o, böhran şəraitində (*inflyasiya sürətləndikdə, ayrı–ayrı məhsulların defisiti artdıqda, iqtisadiyyatın sürətlə yenidən qurulması zərurəti yarandıqda*) güclənir, ölkə böhrandan çıxdıqca zəifləyir.

Dinamik, tarazlaşdırılmış bazar iqtisadiyyatı ölkələrində qiymətlər, tarazlaşdırılmamış və dayanıqsız iqtisadiyyata malik ölkələrdəkinə nisbətən daha az dərəcədə tənzimlənir. İqtisadiyyat sabitləşdikcə dövlət tənzimləməsinin dairəsi daralır və tədricən sərbəst qiymətin əmələ gəlməsinə keçid baş verir.

Qiymətlərin səviyyəsi və dinamikasına vergi sistemi xeyli təsir göstərir. Belə ki, qiymətlərin dinamikası və inflyasiya sürəti vergi dərəcəsindən birbaşa asılıdır. Yəni vergilər nə qədər yüksək olarsa, qiymətlər o qədər sürətlə artır, inflyasiyanın miqyası da o qədər genişlənir. Hər bir istehsalçı əmtəənin

qiyməti vasitəsilə vergini istehlakçının üzərinə qoymağa çalışır. Eyni zamanda dövlət artıq gəlir əldə etməklə, özünün xərclərini də çoxaldır. Bu halda inflyasiyanın azaldılması, qiymət artımının zəiflədilməsi üçün dövlət vergi dərəcələrini aşağı salmalıdır. Dünyanın inkişaf etmiş ölkələrində müasir vergi siyasəti vergilərin azaldılmasına yönəldilmişdir. Məsələn, ABŞ-da federal büdcənin gəlirlərində mənfəət vergisinin payı 8%–dən artıq olmur (*Rusiyada bu göstərici 20%–ə yaxındır*).

Qiymətlərə birbaşa nəzarət metodları dolayı metodlara qarşı qoyulmamalı və onlarla əlaqələndirilməlidir. Bu zaman ümumi antiinfilyasiya siyasəti və bununla əlaqədar qiymətin əmələ gəlməsi prosesinə dolayı təsir göstərən tədbirlər birbaşa dövlət tənzimləməsi metodları ilə tamamlanmalıdır.

Qiymətlərin dövlət tənzimlənməsinin səmərəliyi onun iqtisadiyyata təsir edən digər tədbirlərlə qarşılıqlı əlaqəsindən çox asılıdır. Məsələn, qiymətlərin təcrid (*blokada*) edilməsi, təsbit olunmuş qiymətlərin tətbiqi, mənfəət vergisi dərəcələrinin dəyişilməsi adətən əmək haqqının tənzimlənməsi ilə əlaqələndirilir.

Qiymətlərin dövlət tənzimlənməsinin tətbiq olunduğu məhsul inhisarçı müəssisələr tərəfindən tənzimlənən qiymətlərə satılır. Digər məhsullara, əmtəə və xidmətlərə isə sərbəst bazar qiymətləri müəyyən olunur.

İnhisarçı müəssisələr tərəfindən məhsulun sərbəst qiymətləri əsassız olaraq qaldırılarkən antiinhisar qanunvericiliyi pozulduqda, onların əmtəələrinə qiymətin dövlət tənzimlənməsi tətbiq edilir.

İnhisarçı müəssisələr dövlət qiymət intizamının pozulmasına yol verdikdə onlara qarşı iqtisadi və inzibati təsir tədbirləri görülür.

Seminar sualları

1.Qiymətlərin dövlət tərəfindən tənzimlənməsinin zərurililiy
2.Qiymət siyasətii
3.Dövlətin qiyymətlərə nəzarət metodları
4.Qiymətlərə dövlətin birbaşa təsiri və onların tənzimlənməsi
5.Qiymətlərə dövlətin dolayı təsiri və onların tənzimlənməsi